# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№025** **23 fevral 2021-ci il**

**Qobustan şəhəri Mirzə Ələkbər Sabir küçəsində inşa dilərək istifadəyə verilmiş 48 mənzilli yeni yaşayış binasının Qobustan rayon Kommunal Müəssisələr Kombinatının balansına verilməsi barədə**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 07 may 2019-cu il tarixli 1165 nömrəli sərəncamı ilə Qobustan şəhərində istismar müddəti başa çatmış iki mərtəbəli çoxmənzilli yaşayış binaları sökülərək əhalinin mənzil məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yeni yaşayış binasının tikintisi nəzərdə tutulmuşdur. 48 mənzilli yeni yaşayış binası Mirzə Ələkbər Sabir küçəsində yerləşən, istismar müddəti başa çatmış binaların sökülərək onun ərazisində inşa edilməsi məqsədəmüvafiq hesab edilmişdir. Keçirilmiş tenderin qalibi "Cənub Təmir Tikinti -1" MMC tərəfindən ümumi dəyəri 3 milyon manat olan bina qısa müddətdə tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirliyinin Tikintiyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyi tərəfindən Dövlət nəzarətinin müvafiq qaydada keçirilməsi barədə tikinti işlərinin yerinə yetirilməsi təsdiq edilərək 09 oktyabr 2020-ci il tarixli, D/004125 saylı aktla istismara razılıq verilmişdir.

Binanın tikintisinin başa çatması və əhalinin binaya köçürülməsi, eləcə də yuxarıda qeyd olunanların məqsədəmüvafiqliyini nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 07 may 2019-cu il tarixli 1165 nömrəli sərəncamı ilə Qobustan şəhərində istismar müddəti başa çatmış iki mərtəbəli çoxmənzilli yaşayış binaları sökülərək əhalinin mənzil məişət şəraitinin yaxşılaşdırılması məqsədilə dəyəri 3 milyon manat olan 48 mənzilli yeni yaşayış binasının tikintisi başa çatdığı və istismara verildiyi üçün Qobustan rayonu Kommunal Müəssisələr Kombinatının balansına verilsin.

2. Podratçı təşkilat "Cənub Təmir Tikinti -1" MMC ilə Qobustan rayonu Kommunal Müəssisələr Kombinatı arasında binanın təhvil-təslim aktı tərtib edilərək təsdiq edilsin.

3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri M.Əkbərova və Memarlıq və tikinti şöbəsinin müdiri- baş memar M.Əliyevə tapşırılsın.

**Qobustan rayonu İcra**
**hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**